Bülleten No: 11 / noyabr 2013

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi
Məlumat Hesablama Mərkəzi

**Elektron Hökumət Portalı**
your gateway to all public services

www.e-gov.az

NOYABR 2013

# Elektron Hökumət Bülleteni




## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



SYSTEM CERTIFICATION ISO 9001 SGS
UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# Prezident İlham Əliyevin andiçmə mərasimi keçirilmişdir

**Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyevin oktyabrın 19-da Milli Məclisdə təntənəli andiçmə mərasimi keçirildi.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində geniş nitq söylədi.**

**"Hörmətli xanımlar və cənablar.**

İlk növbədə, mənə yenidən böyük etimad göstərmiş, Prezident vəzifəsinə seçmiş doğma Azərbaycan xalqına dərin minnətdarlığımı bildirirəm. Azərbaycan xalqını əmin etmək istəyirəm ki, mən bundan sonra da ölkəmizin hərtərəfli inkişafı, xalqımızın rifahı üçün əlimdən gələni əsirgəməyəcəyəm, doğma xalqımıza bundan sonra da sədaqətlə xidmət edəcəyəm."



**Prezident İlham Əliyev Elektron Hökumət layihəsi və elektron xidmətlərin tətbiqinə diqqət ayırdı:** "...Növbəti illərdə korrupsiya və rüşvətxorluğa qarşı daha da ciddi mübarizə aparılacaqdır. Bu mübarizənin gözəl nəticələri vardır və bu istiqamətdə dövlət siyasəti birmənalıdır. Çox güclü siyasi iradə var ki, bu xoşagəlməz hallar Azərbaycandan götürülsün. Burada həm inzibati tədbirlər, cəza tədbirləri və sistem xarakterli islahatlar əminəm ki, növbəti 5 il ərzində bu sahədə daha da böyük nailiyyətlərə gətirib çıxaracaqdır. Böyük ümidlərim əlbəttə ki, elektron xidmətlərədir. "Elektron hökumət" layihəsi icra edilir, elektron xidmətlərin sayı artmalıdır. "ASAN xidmət"in qısa müddət ərzində böyük rəğbət qazanması bu əminliyi daha da artırır. Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə ümumxalq işi olmalıdır. Dövlət öz siyasətini aparacaqdır, ancaq, eyni zamanda, ictimaiyyət də bu işlərə fəal qoşulmalıdır, vətəndaşlar biganə qalmamalıdırlar və bütün xoşagəlməz hallar haqqında məlumatlar vaxtında dövlət orqanlarına çatdırılmalıdır."

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası keçirilib

**Prezident İlham Əliyevin yekun nitqi:**

"Korrupsiyaya qarşı mübarizəni uğurla aparmaq üçün əsas şərt siyasi iradənin mövcudluğudur və siyasi iradə vardır. Bizim qəbul etdiyimiz qərarlar, qanunvericilikdə əldə edilmiş irəliləyiş, yeni qanunların qəbul edilməsi və elektron xidmətlərin inkişafı, sistem xarakterli tədbirlər artıq hesab edirəm ki, bu sahədə ciddi dönüşün yaranmasına gətirib çıxarmışdır. Korrupsiya indeksini təhlil edən beynəlxalq qurumlar da Azərbaycanda keçirilən sorğularda cəmiyyətdə bu məsələyə bağlı münasibəti öyrənərək yəqin etmişlər ki, korrupsiyaya qarşı mübarizə məsələlərində dövlətin siyasəti cəmiyyətdə dəstəklənir, təqdirlə qarşılanır. Bu, əminəm ki, gələcəkdə də belə olacaqdır. Çünki bizim siyasi iradəmiz çox güclüdür. Cəmiyyətdə də korrupsiyaya qarşı mübarizədə çox güclü meyllər vardır. Elə etməliyik ki, Azərbaycan qeyd etdiyim kimi, bu sahədə də qabaqcıl ölkələrin sırasında olsun. Son illərdə Azərbaycanda və ümumiyyətlə, dünyada elektron xidmətlərin inkişafı bizə böyük dəstəkdir və biz Azərbaycanda ən mütərəqqi təcrübəni tətbiq edirik. İnkişaf etmiş ölkələrdə olan təcrübə təqdirəlayiqdir. Biz o təcrübəni Azərbaycanda tətbiq etməliyik."

**İqtisadi İnkişaf naziri**
**Şahin MUSTAFAYEV :**

"Hazırda dövlət orqanları tərəfindən 426 növ xidmət elektron qaydada göstərilir. "ASAN xidmət"in fəaliyyətinin genişlənməsi də sahibkarlığın inkişafına töhfə verir."

**Mərkəzi Bankın İdarə Heyətinin sədri**
**Elman RÜSTƏMOV:**

"Dövr ərzində güzəştli ipotekaya çıxış imkanları genişləndirilib, "Elektron ipoteka" sistemi yaradılıb. Kart infrastrukturunun inkişafı davam etdirilib, ödəniş kartlarının sayı 5,3 milyon ədədə, bankomatların sayı 2,4 minə, POS-terminalların sayı isə 36 minə çatdırılıb."



**Dövlət Sosial Müdafiə Fondunun sədri**
**Səlim MÜSLÜMOV:**

"Hesabat dövründə Dövlət Sosial Müdafiə Fondunun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər görülüb, şöbələr üçün yeni inzibati binalar tikilib, hər bir şöbədə lokal şəbəkələrin yaradılması işi davam etdirilib, bu şəbəkələr fiber-optik kanallarla mərkəzi informasiya sisteminə birləşdirilərək fondun ümumi korporativ şəbəkəsi formalaşdırılıb. Dövlət orqanlarının elektron xidmətlər göstərilməsinin təşkili məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində Dövlət Sosial Müdafiə Fondu tərəfindən əhaliyə təqdim olunan elektron xidmətlərin sayı artırılıb və "elektron hökumət" portalının statistikasına əsasən Fondun göstərdiyi elektron xidmətlər əhalinin ən çox müraciət etdiyi elektron xidmətlər sırasına daxil olub. Bu ilin 8 ayında 84 min nəfərdən çox şəxs "elektron hökumət portalı" vasitəsilə bu xidmətlərdən istifadə edib".

www.e-gov.az

# Dövlət Sosial Müdafiə Fondu ilin sonuna kimi bir sıra yeni xidmətlərini “Elektron hökumət” portalına inteqrasiya edəcək

**Cari ilin 9 ayında Dövlət Sosial Müdafiə Fondu (DSMF) tərəfindən təqdim olunan elektron xidmətlər əhalinin ən çox müraciət etdiyi xidmətlər sırasında yer alıb. “Elektron hökumət” portalının (www.e-gov.az) statistikasına əsasən, bu ilin 9 ayında əhalinin daha çox yararlandığı elektron xidmətlər sırasına “Pensiya kapitalı barədə məlumat”, “Məcburi dövlət sosial sığortasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi”, “Pensiyaçı tərəfindən məlumatların əldə edilməsi”, “Pensiya kalkulyatoru”, “Sığortaedənin uçot nömrəsinin öyrənilməsi” adlı xidmətlər daxildir.**

DSMF-nin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Elman Babayevin sözlərinə görə, hesabat dövründə fondun “Elektron hökumət” portalına inteqrasiya olunan elektron xidmətlərindən 95 701 nəfər şəxs istifadə edib və hazırda DSMF “Elektron hökumət” proqramının ən fəal iştirakçılarından biridir. DSMF “Elektron hökumət” portalı ilə yanaşı, fondun saytı (www.dsmf.gov.az) vasitəsilə də əhaliyə müxtəlif elektron xidmətlər göstərməkdədir. Cari ilin 9 ayında bu xidmətlərdən ən çox istifadə olunanları, “Sığortaedənin DSMF orqanlarında məcburi dövlət sosial sığortası üzrə rüblük (illik) hesabatların elektron formada hazırlanması üçün proqram təminatı” və “Məcburi dövlət sosial sığorta haqqı üzrə sığortaolunan haqqında məlumatın toplanması üçün proqram təminatı” adlı elektron xidmətlər olub. Qeyd olunanlardan əlavə, 54 679 nəfərdən çox vətəndaş bilavasitə fondun saytı vasitəsilə bu xidmətlərdən yararlanıb:

“Cari ilin ikinci yarısından etibarən isə Şərqi Avropa və MDB məkanında ilk dəfə olaraq Azərbaycanda vahid mərkəzdən avtomatlaşdırılmış pensiya təyinatı tətbiq olunmaqdadır. Bu elektron xidmət pensiyaçıların ən çox müraciət etdiyi xidmətlərdən biridir və artıq 3 ay ərzində 558 nəfərə bu sistem vasitəsilə pensiya təyinatı aparılıb. Dövlət orqanlarının elektron xidmətlər göstərilməsinin təşkili məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində DSMF-nin əhaliyə təqdim etdiyi elektron xidmətlərin sayı 21-ə çatdırılıb. İlin sonuna kimi bir sıra yeni xidmətlərin “Elektron hökumət” portalına inteqrasiya olunması nəzərdə tutulur”.

# Əmlak Məsələləri Dövlət Komitəsi növbəti elektron xidmətlərini təqdim edib



“Elektron hökumət” portalına elektron xidmətlərin inteqrasiya olunması istiqamətində işlər davam etdirilir. Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) “Daşınmaz əmlaka dair çıxarışların verilməsi üçün müraciətin və sənədlərin qəbul edilməsi”, “Daşınmaz əmlakın dövlət reyestrindən məlumatların verilməsi üçün müraciətin və sənədlərin qəbulu”, “ Daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu”, “Daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu”, “Daşınmaz əmlakın ipotekasının əlavə qeydiyyatı və sonrakı ipotekanın dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu”, “Daşınmaz əmlakın ipotekasının əlavə qeydiyyatı və sonrakı ipotekanın dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu”, “Daşınmaz əmlakın lizinqinin dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu”, “Daşınmaz əmlakın lizinqinin dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu” adlı səkkiz xidmətini portal vasitəsilə təqdim edib.

# Ədliyyə naziri: “Əhaliyə göstərilən elektron xidmətlərin daha geniş tətbiqi ədliyyə işçilərinin üzərinə mühüm məsuliyyət qoyur”

**Dövlət başçısının korrupsiya və rüşvətxorluğa qarşı qəti mübarizənin aparılması, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, informasiya-kommunikasiya texnologiyalarının, “E-hökumət”in formalaşdırılması, əhaliyə göstərilən elektron xidmətlərin daha geniş tətbiqi, beynəlxalq hüquqi əməkdaşlığın genişləndirilməsi və s. məsələlər üzrə konkret tapşırıqları ədliyyə işçilərinin də üzərinə əlavə mühüm məsuliyyət qoyur.**

Bu fikri ədliyyə naziri Fikrət Məmmədov Ədliyyə Nazirliyində keçirilən kollegiya iclasında bildirib. Nazir qeyd edib ki, ötən dövrdə respublikamızın hərtərəfli, o cümlədən sürətli sosial-iqtisadi tərəqqisi təmin olunaraq ölkəmiz liderlər sırasına çıxmış, həmçinin ədliyyə və məhkəmə sistemi də xeyli təkmilləşdirilib. Nazirliyin funksiya və səlahiyyətləri əhəmiyyətli dərəcədə genişlənib, Ədliyyə Akademiyası, müxtəlif reyestrlər, regional ədliyyə şöbələri, xüsusi notariat institutu fəaliyyətə başlamış, vətəndaşların ədliyyə və məhkəmə orqanlarına müraciət imkanları xeyli asanlaşıb, yeni regional məhkəmələr yaradılıb, hakimlərin sayı 2 dəfə artırılıb, infrastruktur müasirləşdirilib.

Kollegiyada ölkə Prezidentinin qarşıda qoyduğu vəzifələrin və tələblərin ədliyyə orqanlarında dürüst və dönmədən icrasını təmin etmək, o cümlədən ədliyyə və məhkəmə fəaliyyətinin müasirləşdirilməsi, ən yeni infrastrukturun yaradılması və qabaqcıl informasiya-kommunikasiya texnologiyalarının, xüsusilə elektron ədalət mühakiməsinin tətbiqi, ədliyyə işçiləri tərəfindən qulluq etikası və davranış norma və prinsiplərinə ciddi riayət olunması, Ədliyyə Akademiyasının imkanlarından səmərəli istifadə olunmaqla ədliyyə işçiləri və hakimlərin tədrisinə diqqətin artırılması üzrə konkret tədbirlər müəyyən olunub.

# Açıq məlumatlar - "Elektron hökumət" həllərində yeni mərhələdir

"Elektron hökumət" quruculuğu istiqamətində dünyada liderlik edən ölkələrdə artıq yeni tendensiya müşahidə olunmaqdadır. Daha doğrusu, onlar bunun – "e-government 3.0" və ya "Open Data"-nın tətbiqinə artıq başlayıblar. Məsələn, Cənubi Koreya dövləti artıq bu mərhələyə qədəm qoyan ölkələr sırasındadır və ölkədə yeni tətbiqlə bağlı əldə edilən uğurlu nəticələr göz qabağındadır. "E-government 3.0" və "Open Data" özündə bir sıra mahiyyətləri ehtiva edir. Belə ki, "Açıq Hökumət" - hökumət əməliyyatları üçün yeni sistemdir. Onun məqsədi ayrı-ayrı şəxsləri fərdiləşdirilmiş xidmətlərlə təmin etmək, ictimai məlumatları açıq şəkildə yayaraq istənilən sahədə iş quruculuğuna və yaradıcı iqtisadiyyata dəstək olmaq, eləcə də dövlət qurumları arasındakı baryerləri aradan qaldırmaqdır. "Açıq Hökumət" yalnız metodoloji nöqteyi-nəzərdən deyil, eyni zamanda istifadəçilərin tələblərinə uyğun olaraq, dəqiq strukturlar əsasında təqdim edilir. Bu struktur özündə açıq məlumatlar, paylaşma, ünsiyyət və əməkdaşlıq prinsiplərini əks etdirir.

Açıq məlumatlar - dövlət orqanlarının və yerli hakimiyyət orqanlarının fəaliyyəti haqqında insan tərəfindən dəyişiklik edilmədən təkrar istifadə məqsədilə avtomatik emalı təmin edilən, internetdə şəbəkə formatında yerləşdirilmiş məlumatlardır. Daha sadə desək, açıq məlumatlar istənilən şəxsin azad istifadə edə biləcəyi və paylaşa biləcəyi məlumatlardır. Bu məlumatların yerləşdirilməsindən asılı olmayaraq, istənilən şəxs tərəfindən qanuna müvafiq şəkildə istifadə edilə bilər. Açıq məlumatlar dövlət orqanları tərəfindən təfərrüatlı şəkildə elektron formatda təqdim edilir. Bu məlumat toplusu şəxsi məlumatları, ticarət və dövlət sirlərini özündə birləşdirmir. İnformasiyanın əldə edilməsi məlumatı təqdim edən orqanın göstərdiyi tələblərə uyğun şəkildə aparılır və öz ilkin formasında təqdim olunur.

Açıq məlumatlar müəyyən prinsiplər əsasında təqdim edilir. Bu prinsiplərə misal olaraq aşağıdakıları göstərmək olar:

- **Qeydiyyatsız istifadə;**
- **Məlumatın tamlığı;**
- **Daim əldə edilən və yenilənən;**
- **Sadə və rahat istifadə olunan və yüklənə bilən format;**
- **Tələb olunan standartlara uyğunluq.**

Məlumatların açıq formatda yerləşdirilməsinin əsas funksiyası iş dünyasının, eləcə də cəmiyyətin bütün üzvlərinin maksimal dərəcədə beynəlxalq, siyasi, sosial və iqtisadi effekt əldə etməsidir. "Açıq Hökumət" sisteminin əsasını "Şəffaf hökumət", "Tələblərə cavab verən hökumət", "Xidmət-yönümlü hökumət" anlayışları təşkil edir. "Şəffaf hökumət" - cəmiyyəti hökumətin fəaliyyətindən xəbərdar saxlayan, vətəndaşların gündəlik həyatlarına təsir edən məlumatları açıq şəkildə paylaşan, vətəndaşlarla daim əlaqədə olan, vətəndaşların dövlət əhəmiyyətli işlərdə iştirakı və onlarla əməkdaşlıq üçün çoxşaxəli vasitələr təmin edən və s. sistem anlayışıdır.

"Tələblərə cavab verən hökumət" isə nazirliklər arasında baryeri aradan qaldırmaqla, onların strukturlarını təşkilat




əsasında olmaqdan tələb əsasında olmağa doğru dəyişərək nəticə əldə edir. Bütün məlumatların nazirliklər arasında paylanmasını təmin edərək hökumətin əməliyyat sistemini inkişaf etdirən sistem anlayışıdır.

"Xidmət yönümlü hökumət" - fərdiləşdirilmiş xidmətləri təmin edən, kiçik və orta ölçülü bizneslərə dəstək olan, ehtiyacı olan insanlarla üz-üzə əlaqəni təmin edən, smart informasiya texnologiyalarını istifadə edərək insanların gündəlik həyatları ilə sıx əlaqəli xidmət sahələri üçün mobil xidmətlər təmin edən sistem anlayışıdır.

"Elektron hökumət" portalının operatoru funksiyasını həyata keçirən Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi tərəfindən portaldan vətəndaşlara aid fərdi məlumatlar üzrə arayış, lisenziya, sertifikat və s. rəsmi sənədlərin (diplomun surəti, kupça, müxtəlif vəsiqələr və s. ) avtomatlaşdırılmış şəkildə təqdim olunması və yoxlanılması ilə bağlı elektron xidmət hazırlanmışdır. Halhazırda xidmətin reqlamenti və hüquqi qüvvəsini tənzimləyən qaydaların hazırlanması üzərində işlər aparılır. Xidmətin hazırlanması üçün Azərbaycan Respublikasının "Fərdi Məlumatlar haqqında" Qanununun 7-ci maddəsinin 7.1.3 bəndi, "İnformasiya əldə etmək haqqında" Qanununun 38-ci maddəsinin 38.6.6-ci bəndi və Azərbaycan Respublikası Prezidentinin 2013-cü il tarixli 5 fevral 813 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin 1.2-ci bəndləri əsas götürülmüşdür. Bu tip xidmətlərin hazırlanması, texnoloji imkanların təqdim edilməsi və bu texnologiyadan digər xidmət təminatçıları tərəfindən müxtəlif fərdi məlumatların, rəsmi sənədlərin verilməsində istifadə edilməsi nəzərdə tutulmuşdur. Həmçinin "Fərdi məlumatlar haqqında" qanuna əsasən, vətəndaşın razılığı əsasında ona aid fərdi məlumatların bu məlumatları tələb edən quruma ötürülməsi servislərinin təqdim edilməsi də nəzərdə tutulmuşdur.

Açıq məlumatlar – "e-government 3.0" istiqamətində ilk xidmət kimi təqdim ediləcək fərdi məlumatlar haqda arayışların verilməsi xidməti özəl sektorda da bir sıra xidmətlərin sadələşməsinə imkan verəcəkdir. Nəticədə isə vətəndaş və özəl sektor məmnunluq, rahatlıq, şəffaflıq, operativlik əldə etmiş olacaqdır. Beləliklə, istifadəçilər www.e-gov.az portalına daxil olaraq, müvafiq xidmətin göstərilməsi və yoxlanılması xidmətlərindən istifadə edə biləcəklər.

www.e-gov.az

# Elektron səhiyyə - bu sahədə hansı yeniliklər gözlənilir?

***"Azərbaycan Respublikasında 2013-cü ilin "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi ilə bağlı Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi üzrə Tədbirlər Planı" üzrə bəndlərdən biri də ölkədə "Elektron səhiyyə, elektron təhsil, elektron satınalma, elektron turizm, elektron notariat, elektron mədəniyyət, elektron arxiv, elektron məhkəmə, elektron ticarət, elektron ödəmə həllərinin tətbiqinin genişləndirilməsi"dir. Müvafiq bəndin icrası isə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Milli Arxiv İdarəsi, Satınalmalar üzrə Dövlət Agentliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə həvalə edilib. Hazırda sözügedən sahələrdə aparılan işlərin bir istiqaməti səhiyyə sistemi ilə bağlıdır. Bəs bu sahədə hansı yeniliklər gözlənilir?***

**Pasiyentlər, vətəndaşlar da elektron xidmətlər vasitəsilə bu məlumat bazalarından yararlana bilərlər**

Səhiyyə Nazirliyi (SN) tərəfindən ilin sonuna qədər bütün elektron xidmətlərin tətbiq edilməsi nəzərdə tutulur. Bu barədə məlumat verən SN-nin Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru Cəbrayıl Əsədzadənin sözlərinə görə, hazırda səhiyyə sisteminin müxtəlif sahələrində informasiya texnologiyalarının tətbiqi geniş yer alıb: "Yeni informasiya sistemləri tətbiq edilir, məlumat bazaları, tibbi registrlər yaradılır. Bütün səhiyyə işçiləri bu sistemlərdən istifadə edərək, işlərini daha da yüngülləşdirirlər. Pasiyentlər, vətəndaşlar da elektron xidmətlər vasitəsilə bu məlumat bazalarından yararlana bilərlər".

**Səhiyyə sistemində 38 elektron xidmətin yaradılması nəzərdə tutulur**

Ümumiyyətlə, Səhiyyə Nazirliyində 38 elektron xidmətin yaradılması nəzərdə tutulur: "Elektron xidmətlərin artıq 20-dən çoxu "Elektron hökumət portalı, eyni zamanda nazirliyin rəsmi saytı vasitəsilə istifadəyə verilib. Onların sırasında həm tibb işçilərinə, həm də vətəndaşlara çox yararlı olan xidmətlər mövcuddur". Onun sözlərinə görə, hazırda təqdim edilən elektron xidmətlər sırasında həm məlumat tipli-informativ, həm də interaktiv xidmətlər var: "Məsələn, ən çox müraciət edilən elektron xidmətlərimizdən biri də "Dərman vasitələri haqqında məlumatın verilməsi"dir.Xidmətin məzmunu Səhiyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatından keçirilmiş dərman vasitələrinin ticarət adı (əmtəə nişanı), beynəlxalq patentləşdirilməmiş adı, buraxılış forması, istehsalçısı, dövlət qeydiyyatının tarixi, nömrəsi və qüvvədə olma müddəti haqqında məlumatların istifadəçilər tərəfindən əldə olunmasından ibarətdir".

**Hər bir doğulan uşağın şəhadətnaməsi eyni informasiya sistemindən əldə olunur**

Cəbrayıl Əsədzadə Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi tərəfindən son illər "Doğum haqqında tibbi şəhadətnamə"nin elektron registri yaradıldığını da qeyd edib: "Özəl və ya dövlət tibb müəssisəsində anadan olmasından asılı olmayaraq, hər bir doğulan uşağın şəhadətnaməsi eyni informasiya sistemindən əldə olunur və onunla bağlı məlumatlar informasiya sistemində - elektron registrdə qeydiyyata düşür. Elektron registr vasitəsilə yeni doğulan körpəyə tibbi şəhadətnamə çap edilərək verilir. Bunun əsasında valideyn qeydiyyat şöbəsində uşağına "Doğum haqqında şəhadətnamə" alır".

**Tibbi şəhadətnamənin surətini itirənlər elektron xidmət vasitəsilə onu daha sadə yolla əldə edə bilirlər**

Belə ki, hazırda sözügedən portallar vasitəsilə qeydiyyatdan keçən ana tibbi şəhadətnamənin surətini əldə edə, eyni zamanla uşaqla bağlı istənilən məlumata baxa bilər: "Bu sənəd itirildiyi zamanda, həmçinin tibbi şəhadətnamənin surətinin əksər yerlərdə tələb olunduğunu da nəzərə alsaq, bunun üçün artıq harasa getməyə ehtiyac yoxdur. Çünki elektron xidmət vasitəsilə bu sənədin surətini indi çox sadə yolla əldə etmək mümkündür".

**Tibbi şəhadətnamənin kağız forması ləğv ediləcək**

Mərkəz direktoru bildirib ki, hazırda bu xidmətin təkmilləşdirilməsi üzərində işlər və müzakirələr də aparılır. Belə ki, gələcəkdə bu xidmətdən istifadənin genişləndirilməsi vətəndaşların rahatlığı baxımından yeni imkanlar yarada bilər: "Bu sahənin inkişafı növbəti yeniliklərə yol aça bilər. Belə ki, hər doğulan uşaq barəsində məlumatlar Ədliyyə Nazirliyinə də məlumat mübadiləsi şəklində ötürülür. Ola bilər ki, tibbi şəhadətnamənin kağız forması gələcəkdə tamamilə yığışdırılsın. Hazırda bu istiqamətdə Ədliyyə Nazirliyi ilə müzakirələr aparılır".

**"Elektron hökumət" bütün sahələrin inkişafına təkan verəcək**

İstər tibb, istərsə də digər sahələrdə bu gün həyata keçirilən xidmətlərin elektronlaşdırılmasının başında isə "Elektron hökumət" layihəsi dayanır. Mərkəz direktoru bu layihənin yaratdığı üstünlüklərdən də danışıb: ""Elektron hökumət" layihəsi çox vacib layihədir. Layihə bütün sahələrin inkişafına, o cümlədən məlumat operativliyinin səmərəliliynə təkan verəcək. Əgər indiyə qədər qurumlar öz aralarında mübadiləni kağız arayış formasında həyata keçirirdilərsə, bu layihə müxtəlif qurumların bir-birlərinin məlumat bazalarından sürətli, operativ istifadə etməyə imkan verir. Arayış, sorğu mübadiləsi əvvəllər günlər, həftələr apararaq, xeyli vaxt tələb edirdi. İndi isə informasiya sistemlərinin "Elektron hökumət" portalı vasitəsilə cəmləşdirilməsi məlumat bazalarından səmərəli istifadəyə yol açır".



**Səhiyyə sistemində də interaktiv xidmətlərin artırılmasına ehtiyac var**

Amma gətirdiyi faydalarına baxmayaraq, bu gün dövlət qurumlarının "Elektron hökumət" portalına inteqrasiyasında bir ləngimə var. Vətəndaşlar yalnız informativ deyil, daha çox tələbat duyulan sahələr üzrə, o cümlədən səhiyyə sistemində də interaktiv xidmətlərin göstərilməsinin arzusundadırlar. Hələlik isə Səhiyyə Nazirliyi ilin sonuna qədər prosesi yekunlaşdıracağı ilə bağlı vəd verir.

Qeyd edək ki, Səhiyyə Nazirliyinin elektron xidmətlərinə "Səhiyyə Nazirliyinə göndərilmiş sorğuların və məktubların icrasının müraciət edənlər tərəfindən onlayn izlənilməsi", "Xarici ölkələrdə ali və orta ixtisas təhsili almış, diplomdan sonra ixtisaslaşma keçən tibb və əczaçılıq işçilərinin işə buraxılması üçün müraciətin və sənədlərin qəbulu", "Tibbi müayinə kartının online sifarişi", "Daxili istehsal məhsullarına və idxal edilən məhsullara gigiyenik sertifikatın verilməsi üçün müraciətin və sənədlərin qəbulu", "Tibbi kadrların vahid registrindən məlumatların verilməsi", "Ambulator tibb müəssisələrindən evə çağırış və ya həkim qəbuluna yazılma", "Vətəndaşlara elektron sağlamlıq kartı üzrə məlumatların verilməsi", "Obliqat Qruplara aid vətəndaşlara müayinələrdən keçmələri barədə məlumatın verilməsi" daxildir. Bundan başqa, nazirlik tərəfindən təqdim edilən elektron xidmətlər siyahısında "Müəssisə rəhbərlərinə obliqat qrupuna daxil olan işçiləri barədə məlumatın verilməsi", "Dövlət tərəfindən dərman vasitələri ilə təmin olunan xəstələrə şəxsi məlumatları, onların qeydiyyatı və aldığı dərmanlar barədə məlumatın verilməsi", "Vətəndaşların Axtarışı Sistemi", "Özəl tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq üçün xüsusi razılığın (lisenziya) verilməsi üçün müraciətin və sənədlərin qəbulu", "Dərman vasitələri haqqında məlumat verilməsi", "Profilaktik peyvəndlərin vaxtı barədə SMS vasitəsilə xəbərdarlıq verilməsi", "Tibb müəssisələri barədə məlumatların verilməsi", "Tikinti üçün torpaq sahəsinin sanitariya normalarına və qaydalarına, gigiyena normativlərinə uyğunluğuna dair rəyin verilməsi", "Tikinti və yenidən qurma layihələrinə sanitariya-epidemioloji rəyin verilməsi üçün müraciətin və sənədlərin qəbulu", "Rentgen kabinetinin istismarına icazə verən sanitariya-epidemioloji rəyin verilməsi", "Radioaktiv maddə və materialların daşınması üsullarının və şəraitinin sanitariya qaydalarına uyğun olması barədə sanitar-epidemioloji rəyin verilməsi", "İonlaşdırıcı şüa mənbələri ilə işlərə icazə verən sanitar-epidemioloji rəyin verilməsi", "Doğum haqqında tibbi şəhadətnamə elektron registrindən məlumatların verilməsi" yer alıb.

# "Dərslik" portalı yaradıldı

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) sədri Məleykə Abbaszadə elektron "Dərslik" portalının yaradılması məqsədilə əmr imzalayıb. Əmrdə bildirilir ki, portal "Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 6 aprel tarixli 219 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" prezidentin 2012-ci il 19 aprel tarixli 611 nömrəli fərmanına əsasən Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına tapşırılmış ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə istifadə edilən dərsliklərin, dərs vəsaitlərinin və digər tədris vasitələrinin elmi-metodiki monitorinqinin həyata keçirilməsinin mərhələsi kimi yaradılır.**

Əmrə əsasən, ümumi təhsili həyata keçirən bütün təhsil müəssisələrində istifadə edilən dərslik, dərs vəsaiti və digər tədris vasitələrinin elmi-metodiki monitorinqi nəticəsində formalaşmış yekun rəylər ölkədə tətbiq edilən dərslik siyasətinə görə yalnız 4 ildən bir yeni hazırlanacaq dərsliklərdə nəzərə alına bilər.

Dərsliklərin daim təkmilləşdirilməsinin vacibliyini nəzərə alaraq yeni dərsliklər çap olunanadək, Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə birgə elektron "Dərslik" portalının yaradılması bir neçə mərhələ üzrə həyata keçiriləcək. Belə ki, TQDK tərəfindən ümumi təhsili həyata keçirən təhsil müəssisələrində istifadə edilən dərsliklərin, dərs vəsaitlərinin və digər tədris vasitələrinin aparılmış elmi-metodiki monitorinqi nəticəsində hazırlanmış yekun rəylər və müəllimlərə dərsliklərlə işləməkdə metodiki köməklik göstərmək üçün nəzərdə tutulmuş materiallar bu portalda yerləşdiriləcək.

Portalda yerləşdirilmiş rəylərlə bağlı sorğulara Təhsil Nazirliyi tərəfindən dərslik müəlliflərinin, TQDK tərəfindən isə dərsliklərin monitorinqində iştirak etmiş ekspertlərin mütəmadi olaraq aydınlıq gətirməsi təşkil ediləcək.

Tədris prosesində yeni təhsil proqramları (kurikulum) əsasında hazırlanmış və ilk dəfə nəşr olunmuş dərslik və dərs vəsaitlərinin bölmələri, fəsilləri üzrə materiallara dair qeyd və təkliflər portalda hissə-hissə onlar keçildikcə yerləşdiriləcək. Həmin materiallarla bağlı portala qeydlər, təkliflər daxil olarsa, onlar mütəmadi olaraq müzakirələrə çıxarılsın və bu barədə portalda məlumat veriləcək.

Elektron portal istifadəçiləri anonim olmamalı, bunun üçün "Dərslik" portalının istifadəçiləri qeydiyyatdan keçərkən şəxsiyyət vəsiqəsinin seriyası və PİN kodunu müvafiq sahələrə daxil etməlidirlər. Bu məlumatların həqiqiliyinin yoxlanılması "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi vasitəsilə həyata keçiriləcək. Elektron "Dərslik" portalını TQDK tərəfindən təyin edilmiş moderator idarə edəcək. Elektron "Dərslik" portalı"ndakı sorğuları cavablandırmaq və metodiki materiallar hazırlamaq üçün müqavilə əsasında mütəxəssislər cəlb ediləcək.

www.e-gov.az

# Azərbaycanda "Elektron hökumət" üçün təlim mərkəzinin yaradılması" layihəsi üzrə işlər davam edir

**"Azərbaycanda "Elektron hökumət" üçün təlim mərkəzinin yaradılması" layihəsi üzrə işlər davam edir. Layihənin icrası məqsədilə hazırda Gəncə, Sumqayıt, Mingəçevir, Bərdə, Lənkəran, Qazax, Zaqatala, İmişli, Qəbələ, Göyçay, Şirvan, Şamaxı, Quba, Şəkidəki 14 telekommunikasiya qovşağının inzibati binasında isə mərkəz üçün ayrılmış otaqlar təmir edilərək istifadəyə hazır vəziyyətə gətirilib.**

Qeyd edək ki, "Azərbaycanda "Elektron hökumət" üçün təlim mərkəzinin yaradılması" layihəsi üzrə "Koreya Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında Qrant razılaşması" Nazirlər Kabinetinin sərəncamına əsasən, 15.05.2013-cü il tarixindən qüvvəyə minib. Layihə çərçivəsində Bakı şəhərində və Gəncə, Naxçıvan, Sumqayıt, Mingəçevir, Bərdə, Lənkəran, Qazax, Zaqatala, İmişli, Qəbələ, Göyçay, Şirvan, Şamaxı, Quba, Şəki daxil olmaqla on beş bölgədə təlim mərkəzlərinin yaradılması, mərkəzlərdə Koreya mütəxəssisləri tərəfindən xüsusi təhsil informasiya sistemi quraşdırılması və zəruri avadanlıqlarla təmin olunması nəzərdə tutulur. Dövlət qulluqçuları bu mərkəzlərdə bilavasitə təlim kurslarında iştirak edə biləcək, eyni zamanda mərkəzin distant təhsil xidmətlərindən yararlanacaqlar. Layihə çərçivəsində təlim mərkəzinin fəaliyyətinin təşkili, elektron təlim materiallarının hazırlanması üzrə təcrübə əldə etmək üçün yerli mütəxəssislər Koreyada təlim kursları keçəcəklər.

Azərbaycanda "Elektron hökumət" üçün təlim mərkəzinin yaradılması dövlət qulluqçularına İKT-nin tətbiqi sahəsində yeni praktik bilik və bacarıqların əldə edilməsinə imkan yaradacaq. Mərkəz dövlət idarəçiliyində və respublikanın ictimai həyatının digər sahələrində e-hökumət ideyalarının tətbiqinə, informasiya cəmiyyətinin inkişafına, elektron biliklərin ümumi səviyyəsinin yüksəldilməsinə, elektron xidmətlərin artmasına xidmət edəcək.



# Naxçıvan MR-nın "Elektron hökumət" portalında 30-dan artıq dövlət orqanının elektron xidmətləri yerləşdirilib



**Naxçıvanın "Elektron hökumət" (e-hokumet.nmr.az) portalı vasitəsilə muxtar respublikanın 34 dövlət orqanının xidmətlərindən yararlanmaq mümkündür.**

"ICTnews" elektron xəbər xidmətinin məlumatına görə, Naxçıvan Muxtar Respublikasının "Elektron hökumət" elektron xidmətlər portalına 34 dövlət orqanı qoşulub. Bu dövlət orqanlarına Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, Rabitə və İnformasiya Texnologiyaları, Daxili İşlər, Ədliyyə, Fövqəladə Hallar, Maliyyə, İqtisadi İnkişaf, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi, Ekologiya və Təbii Sərvətlər, Mədəniyyət və Turizm, Təhsil, Səhiyyə, Nəqliyyat, Gənclər və İdman nazirlikləri, Şəhərsalma və Arxitektura, Gömrük, Torpaq və Xəritəçəkmə, Ailə, Qadın və Uşaq Problemləri, Statistika, Standartlaşdırma, Metrologiya və Patent, Meliorasiya və Su Təsərrüfatı komitələri, Dövlət Sosial Müdafiə Fondu, Naxçıvan Ali Məclisi yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya, Miqrasiya, Səfərbərlik və Hərbi Xidmətə Çağırış, Daşınmaz Əmlakın Dövlət Reyestri, Baytarlıq xidmətləri, Energetika, Satınalmalar agentlikləri, Arxiv İdarəsi, həmçinin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi, Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi və Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzi daxildir.

Qeyd edək ki, "E-hökumət" elektron xidmətlər portalı vətəndaşlar, sahibkarlar və dövlət qulluqçuları üçün nəzərdə tutulub. Portal istifadəçilər üçün zəruri məlumatların əldə edilməsini və lazım olan xidmətlərin göstərilməsini təmin edir.

# "Elektron hökumət" portalına daxil olanlar haqqında statistik məlumatlar




ŞƏKİL 1

Portala daxilolmaların statistik uçotunun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2013-cü ilin oktyabr ayının 31-nə qədər portala daxil olanlar haqda detallı məlumatlar təqdim olunur. Qrafikdən ***(şəkil 1)*** də göründüyü kimi, portala ümumilikdə 392 845 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 229 398 nəfər olub. Belə ki, 229 398 nəfər ümumən 392 845 dəfə portala baxıb və 579 643 elektron xidmətə müraciət ediblər. Həmin şəxslər 1 367 846 müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 4 dəqiqə 44 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 58,6% yeni istifadəçilər, 41.4% isə təkrar müraciət edənlər təşkil edib.

Müqayisə üçün oktyabr ayının statistikasına ***(şəkil 2)*** nəzər salsaq, bu dövrdə portala 33 658 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 21,700 nəfər olub. Həmin şəxslər 115,420 müxtəlif səhifələrə keçid ediblər, 78 390 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 03 saniyə təşkil edib. Oktyabr ayı ərzində portala müraciət edənlərin 51% yeni istifadəçilər, 49% isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod parol alan istifadəçilərin sayı bu gün 21 500-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər.

Portalın "Facebook" sosial şəbəkəsində istifadəçilərinin sayı isə 92 000 nəfər təşkil edir. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 272 ədəd olmuşdur.




ŞƏKİL 2

# "İdarəetmə Sistemi vasitəsilə genişzolaqlı internet xidmətinin təşkili və daşınması Qaydası" nın layihəsi ictimai müzakirəyə çıxarılır

Azərbaycanda internet istifadəçilərinin sayı gündən-günə artır. Dünya İqtisadi Forumunun "Qlobal İnformasiya texnologiyaları 2013" hesabatına əsasən, ölkəmiz internet istifadəçilərinin say göstəricisinə görə MDB və orta Asiya ölkələri arasında liderliyini saxlayaraq, eyni zamanda 144 ölkə arasında internetin əlçatanlığı göstəricisinə görə 20-ci yerdə qərarlaşıb. İnternet istifadəçilərinin sayının artımı telekommunikasiya sahəsində sağlam rəqabət mühiti və antiinhisar fəaliyyətinin tənzimlənməsi, telekommunikasiya xidməti bazarına bərabərhüquqlu daxilolmanı, eyni zamanda internet istifadəçilərinə yüksək keyfiyyətli xidmətlərin göstərilməsini və bu sahədə hüquqlarının təmin edilməsi kimi aktual məsələləri gündəmə gətirir. Bu zərurəti əsas götürərək, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən "İdarəetmə Sistemi vasitəsilə genişzolaqlı internet xidmətinin təşkili və daşınması Qaydası" nın layihəsi hazırlanıb. Qabaqcıl texnologiyaları tətbiq etməklə müraciətçilərin provayderin genişzolaqlı internet xidmətlərinə qoşulması və imtinası, həmçinin internet xidmətləri göstərən provayderin dəyişdirilməsi ilə bağlı müraciətlərin qısa vaxt ərzində təmin etmək üçün lazımi prosedurları müəyyənləşdirən qaydaları ictimai müzakirəyə təqdim edirik.

Aşağıda yerləşdirilmiş Qaydaların layihəsilə "Elektron Hökumət" Portalında normativ-hüquqi aktların layihələri bölməsinin RİTN-ə aid hissəsində də (https://projects.e-gov.az/allservices.aspx) tanış ola bilərsiniz.

Qeyd edək ki, istənilən vətəndaş layihəyə dair rəy və təkliflərini info@e-gov.az elektron ünvanına göndərə bilər.

www.e-gov.az

# “”Elektron hökumət”: mövcud vəziyyət, problemlər, perspektiv və gözləntilər” məqalə müsabiqəsinin 2-ci mərhələsinin qalibləri məlum olmuşdur

***“İKT ili” çərçivəsində Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin “Respublikada “Elektron hökumət”: mövcud vəziyyət, problemlər, perspektiv və gözləntilər” mövzusunda elan etdiyi analitik məqalə müsabiqəsinin 2-ci mərhələsi başa çatıb. Aşağıdakı müəlliflər 2-ci turun qalibləri olublar:***

**QRAN PRİ MÜKAFATININ SAHİBİ - Zülfiyyə Quliyeva**
Hökumətin elektron qapısının “açarı” kimin çibindədir?

**1-Cİ YER - Ruhiyyə Hüseynova**
Azərbaycanda e-hökumət müəmması; Bürokratik əngəl, yoxsa məsuliyyətsizlik?

**2-Cİ YER - Aynurə Əhmədova**
Elektron hökumət kabusu. Elektronlaşmaqdan yan gəzən bəzi qurumlara vətəndaşlarla birbaşa ünsiyyət “sərf edir”

**3-CÜ YER - Zahir Hətəmov**
Korrupsiyaya qarşı yeni sədd - Elektron hökumət. İslahatlar niyələngiyir?

# “Online fikir bankı” yaradılır

**Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi (GİN) gənclər üçün yeni və unikal bir layihəni başlayır. “Online fikir bankı” adlanan layihənin əsas məqsədi ölkənin inkişafı yönümündə gənclər tərəfindən irəli sürülən fikir və ideyaları bir yerə toplamaq, gənclərin ölkə daxilində daha da inkişaf etdirmək istədikləri sahələri müəyyənləşdirmək, onların fikir və ideyalarını düzgün istiqamətləndirərək mümkün inkişaflarına zəmin yaratmaq, yeni, innovativ fikir və ideyalara malik gəncləri və bu fikir və ideyaların axtarışında olan potensial investorları (dövlət, beynəlxalq təşkilatlar və özəl) bir araya gətirmək, ölkəmizdə gənclərin fəallığının artırılmasına, onların cəmiyyətdə mövqelərinin möhkəmlənməsinə zəmin yaratmaqdan ibarətdir.**

Nazirlikdən bildirilib ki, “Online fikir bankı” layihəsi 2013-cü ilin “İnformasiya-kommunikasiya texnologiyaları ili” elan edilməsi çərçivəsində “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı”na müvafiq olaraq həyata keçirilir. Dövlət Proqramının 6.3.8 - “Azərbaycanın “online fikir bankı”nın yaradılması” bəndinin icrası məqsədilə artıq Gənclər və İdman Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyasının təşkilatçılığı ilə “www.fikirbanki.az” saytı yaradılıb və istifadəçilərə təqdim edilib:

“Bu bənd informasiya texnologiyaları vasitəsilə gənclər arasında innovativ düşüncənin təşviq edilməsi məqsədini daşıyır. Gənclərin irəli sürdükləri fikir və ideyalar açıq istifadə üçün saytda yerləşdiriləcək. Bu təkliflərdən bütün cəmiyyət, o cümlədən dövlət, beynəlxalq və özəl təşkilatlar faydalana biləcəklər. Bu da öz növbəsində həm gənclərin, həm də bütün cəmiyyətin həyat keyfiyyətinin daha da artırılmasına səbəb olacaq”. Veb-saytda “Ayın qalibi” adlı xüsusi bölmə yaradılıb və qaliblər Gənclər və İdman Nazirliyinin və tərəfdaş təşkilatların diplomları və qiymətli hədiyyələri ilə mükafatlandırılacaqlar:

“Azərbaycan gəncliyinin vətənpərvər, istedadlı və innovativ düşüncəyə malik olduğunu nəzərə alaraq, ekspertlərin rəylərinə əsasən, belə bir layihə günün tələblərinə tam uyğundur və uğurla nəticələnəcək.

“Online fikir bankı” layihəsi gənclərin müzakirələr



aparmaları üçün əlverişli platforma rolunu oynayacaq və cəmiyyətdə gənclərin mövqelərinin möhkəmlənməsinə şərait yaradacaq”.

Qeyd edək ki, “Hər şey ideyadan başlayır” devizi altında fəaliyyət göstərən fikir bankına – veb-sayta 14 yaşından başlayaraq Azərbaycan Respublikasının vətəndaşı olan yeniyetmə və gənclər öz fikir və ideyalarını göndərə bilər. İstifadəçilər tərəfindən göndərilən fikir və ideyalar təmənnasız xarakter daşıyır.

Başqa sözlə, istifadəçilər öz fikir və ideyaları ilə təmənnasız olaraq bölüşürlər. Veb-sayt sosial xidmətlər, iqtisadiyyat, təhsil, milli mədəni irs, turizm, mədəniyyət, əyləncə, nəqliyyat, media, rabitə və telekommunikasiya, tibb və sağlamlıq, ətraf mühit kimi kateqoriyalar üzrə fikir və ideyaları qəbul edir. “www.fikirbanki.az” veb-saytında yalnız qeydiyyatdan keçən gənclər öz fikir və ideyaları ilə bölüşə, sosial şəbəkələrdə qeydiyyatdan keçmiş istifadəçilər isə istənilən fikir və ideyaya münasibətlərini bildirə bilərlər. İstənilən kateqoriyadan birini əhatə edən fikir və ideyalar “www.fikirbanki.az” veb-saytı vasitəsilə, müvafiq formanı dolduraraq və ya “DOC”, “PPT”, “PDF”, “AVİ” sənəd formasında (DOC və PDF sənəd - A4, 12 şrift, ARİAL, 2-4 səhifə, PPT sənəd – 6-20 slayd) qəbul edilir.

Veb-sayta göndərilən fikir və ideya ilk növbədə xüsusi Ekspert Şurası tərəfindən nəzərdən keçirilir və öz təsdiqini tapdıqdan sonra saytın müvafiq səhifəsində yerləşdirilir. Sayta daxil edilən fikir və ideya Ekspert Şurası tərəfindən 1-6 gün ərzində yoxlanıla bilər. Ekspert Şurası tərəfindən qəbul edilməyən və bununla əlaqədar olaraq veb-saytda yerləşdirilməyən fikir və ideyanın qəbul olunmaması səbəbləri müəllifə açıqlanmaya bilər.

# "Elektron Hökumət" ən yaxşı yazı mövzusunda məqalə müsabiqəsinə yekun vurulmuşdur

## Müsabiqənin birinci turuna 114 ikinci turuna isə 11 məqalə daxil olmuşdur. Məqalələrdə müəlliflər tərəfindən irəli sürülmüş təkliflər təhlil olunaraq sistemləşdirilmişdir və diqqətinizə təqdim edilir.

### DAXİLİ İŞLƏR NAZİRLİYİ

1. İnternet vasitəsilə müraciət etməklə və rüsum ödəməklə avtomobillərə dövlət nömrə nişanlarının alınması;
2. Şəxsiyyət vəsiqəsi və digər sənədlər almaq üçün onlayn applikasiyanın da yaradılması;
3. Avtonəqliyyat vasitələrinin və qoşquların dövlət texniki baxışının və qeydiyyatının keçirilməsi üçün müraciət;
4. Yol hərəkəti qaydaları və sürücülük vəsiqələri üzrə imtahanların qəbul edilməsi və nəqliyyat vasitələrini idarə etmək hüququ verən sürücülük vəsiqəsinin verilməsinin təşkil edilməsi;
5. Vətəndaşların şəxsiyyət vəsiqəsinin və ümumvətəndaşlıq pasportlarının dəyişdirilməsi üçün müraciətlərin və sənədlərin qəbulu;
6. Yaşayış yerinə qeydiyyata alınma üçün müraciət;
7. vətəndaşın adına olan minik vasitələri haqda məlumat
8. Avtomobil tanınma nişanına əsasən sahibi haqqında ətraflı məlumat;
9. Sürücünün cərimə ödənişləri üzrə arxiv açıqlaması;
10. Oğurlanmış avtomobillərin reyestrinin yaradılması.

### ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ

1. İş axtarışı ( müəssisələrdə vakant yerlər barədə məlumatların verilməsi);
2. İşsizlik statusunun verilməsi və müavinətinin təyin edilməsi üçün müraciətin və sənədlərin qəbulu;
3. ƏƏSMN tibbi-sosial reabilitasiyanın həyata keçirilməsi, protez-ortopedik məmulatların və reabilitasiya vasitələrinin təminatı üçün müraciətin və sənədlərin qəbulu;
4. Əmək şəraitinə görə güzəştli əmək stajı hesablanan işçilərin siyahısının təqdim edilməsi;
5. Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəllərinin online təqdim edilməsi;
6. İstehsalatda baş verən bədbəxt hadisə barədə aidiyyəti dövlət strukturuna məlumatların verilməsi;
7. Məşğulluqla bağlı, habelə peşə hazırlığı, əlavə təhsil və haqqı ödənilən ictimai işlərə cəlb olunmaq üçün müraciətin və sənədlərin qəbulu;
8. Müavinətlər və ünvanlı sosial yardım üzrə müraciət.

### ƏDLİYYƏ NAZİRLİYİ

1. Vətəndaşın sorğusu əsasında hüquqi məsləhətlərin verilməsi xidmətinin göstərilməsi. Belə ki, pozulmuş hüquq və azadlıqlarının bərpası, ailə vəziyyətinin dəyişdirilməsi, mülkiyyət və vergi münasibətlərinin tənzimlənməsi və digər məqsədlərlə hüquq məsləhətxanalarına müraciət etməyə maddi imkanı olmayan şəxslərə münasibətdə ,ədliyyə qurumları və ya vəkillər Kollegiyası tərəfindən belə bir xidmət təqdim oluna bilər;
2. E-Notarius;
3. Hüquq mühafizə orqanlarına edilən şikayətlərinin izləmə sistemi;
4. Məhkəmə sahəsi üzrə xidmətlər;
5. Qeyri Hökumət Təşkilatlarının online qeydiyyata alınması;
6. Vətəndaşlıq vəziyyəti aktlarından çıxarışların (doğum, nigah, ölüm) online olaraq verilməsi;
7. Məhkumluq barədə arayışların verilməsi.

### VERGİLƏR NAZİRLİYİ

1. Onlayn ödəmələrlə bağlı vergi güzəştlərinin tətbiqi.

www.e-gov.az

## SƏHİYYƏ NAZİRLİYİ

1. Anadan olan uşaqların e-qeydiyyatına əsasən dövlət tərəfindən verilən birdəfəlik müavinət pulu üçün bir neçə qurumdan müxtəlif sənədlərin hazırlanmasını və vəsaitin verilməsinin  bir pəncərə prinsipi ilə həlli.

## MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

1. İctimai e-kitabxanaların yaradılması.

## XARİCİ İŞLƏR NAZİRLİYİ

1. Konsulluqların xidmət sahəsinə daxil olan pasport, ölkəyə qayıdış, viza, notariat hərəkətlər, vətəndaş vəziyyəti aktlarının dövlət qeydiyyatı, immiqrasiya məsələlərini həll etmək üçün vətəndaşlar mütləq diplomatik korpuslara gəlməli olur.

## NƏQLİYYAT NAZİRLİYİ

1. Dəmiryol xidməti biletlərinin online satışı.

## TƏHSİL NAZİRLİYİ

1. Orta məktəblərə şagird qəbulu;
2. Müxtəlif təhsil pillələri üzrə tədris proqramlarında mövzu olaraq Elektron Hökumət predmetinin əlavə olunması;
3. İnformatika fənninin buraxılış və qəbul imtahanlarına salınması;
4. Ali məktəblərdə ixtisaslarından asılı olmayaraq bütün tələbələrə 1 semestrlik "Elektron Hökumət" fənninin tədris olunması.

## DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU

1. Dövlət Sosial Müdafiə Fondunda  Sığortaedənin (hüquqi və fiziki şəxs) və sığortaolunanın onlayn uçota alınması;
2. Məcburi dövlət sosial sığortası üzrə hesabatların təqdim edilməsi;
3. Sosial fondlara ödənişlərin həyata keçırılməsi;
4. Dəfn üçün müavinətin ödənilməsi ilə bağlı müraciətlərin və sənədlərin qəbulu;
5. Uşağın anadan olmasına  görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi;

## ƏMLAK MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

1. Daşınmaz əmlaklara "küpça"nın verilməsi.

## AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

1. Ölkə daxilində övladığa götürmə ilə bağlı müraciət və sənədlərin qəbulu.

## DÖVLƏT NEFT ŞİRKƏTİ, AZƏRİQAZ İB

1. SMART tipli qaz sayğaclarına pulun yüklənilməsi;
2. SMART tipli kartların yenisi ilə əvəz olunması;
3. Qaz borcu və ödənişlərinin portala inteqrasiyası;
4. Qaz sayğaclarının qoşulması üçün texniki şərtin istənilməsi və növbəyə götürülmə.

## AZENERJİ ASC

1. Elektrik enerjisi tələbatçılarının elektrik qurğularının şəbəkəyə qoşulması üzrə texniki  şərtlərin alınması;
2. Mənzillərin elektrik enerjisi sayğaclaşdırılması  ilə bağlı növbəlilik prinsipi.

### SƏFƏRBƏRLİK VƏ HƏRBİ XİDMƏTƏ ÇAĞIRIŞ ÜZRƏ DÖVLƏT XİDMƏTİ

1. Hərbi xidmətkeçmə haqqında arayışın verilməsi üçün müraciətin və sənədlərin qəbulu, arayışın elektron şəkildə verilməsi;
2. Arxiv arayışlarının verilməsi üçün müraciətin və sənədlərin qəbulu;
3. İtirilmiş hərbi biletlərin (ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqələrin) əvəzinə yenisinin verilməsi üçün müraciətin və sənədlərin qəbulu;
4. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə həqiqi hərbi xidmətə (işə) qəbulla əlaqədar müraciətin və sənədlərin qəbulu kimi xidmətləri e-hökumət portalına inteqrasiya olunması.

### MÜƏLLİF HÜQUQLARI AGENTLİYİ

1. İntelektual mülkiyyətə patent alınması xidməti yaradılsın.

### YERLİ İCRA HAKİMİYYƏTLƏRİ

1. Uşaq Evləri və Bağçalar İdarəsi bütün bağçalarda yerlərin, uşaqların sayı barədə məlumatları elektron formada verilməsi;
2. Bağçalara uşaq qəbulu;
3. İcra hakimiyyəti orqanlarında, icra nümayəndəliklərinə, həmçinin bələdiyyələrə müxtəlif sənədlərin elektron qaydada verilməsi;
4. Ev alqı satqısı zamanı tələb olunan A2 forması, kommunal borcların olmaması haqqında arayışların elektron şəkildə alınması;
5. RİH-ləri tərəfindən mənzil növbəsinə qeydiyyat və qeydiyyat reyestri;
6. RİH-lərinin Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin bütün xidmətlərinin e-hökumət portalına inteqrasiyası;
7. Tikintiyə icazənin üçün müraciət və icazənin elektron şəkildə verilməsi;
8. Yaşayış yerindən arayışin elektron qaydada alınması.

### BANK SEKTORU

1. Bank sektorunda "Elektron hökumət"in tətbiqi;
2. Elektron kabinetlərin yaradılması;
3. Kommunal xidmət kodlarının FİN-ə uyğunlaşdırılması;
4. İpoteka kreditləşməsi;

### BƏLƏDİYYƏLƏR

1. Bədiyyələrın göstərdiyi xidmətlərində elektron-hökümət portalına inreqrasiya olunması;
2. Bələdiyyələrdə sakinlərin yerli özünü idarəetmə orqanlarına ödədikləri əmlak vergisinin online qəbulu və uçotu;

### KOMMUNAL XİDMƏT SAHƏLƏRİ ÜÇÜN

1. Kommunal xidmətlər üçün Abonent Etirazları üzrə Komissiyalara daxil olan etirazlara baxılması ilə bağlı müraciət və izləmə sistemi.

### BÜTÜN QURUMLAR TƏRƏFİNDƏN

1. Dövlət Sosial Müdafiə Fonduna, Dövlət Statistika Komitəsinə, Dövlət Məşğulluq Fonduna hesabatların elektron şəkildə göndərilməsi;
2. Elektron müraciətlərin cavablandırılması müddəti azaldılması.
3. Təqdim olunan xidmətlərin mahiyyətinə dair qısa məzmunun və təlimatın verilməsi;
4. Seminarlar şəklində maarifləndirmə işlərinin davam etdirilməsi;
5. Stimullaşdırıcı tədbirlərin görülməsi.

### MİLLİ MƏCLİS

1. Milli Məclis tərəfindən e-xidmətlərin göstərilməsi.

### NAZİRLƏR KABİNETİ

1. Xüsusi dövlət vəzifəsi yaratmaq və "Elektron nəzarətçi" adlandırmaq olar;
2. Böyük Britaniyada fəaliyyət göstərən Elektron Səfirlik adlanan qurum e-hökumətin kadr potensialının artırılmasına və ona nəzarəti həyata keçirir. Bu tipdə qurum yaradılması;
3. İctimai əhəmiyyətli kommersiya qurumlarının – mobil və internet xidmətləri göstərən özəl şirkətlərin, bankların, sığorta şirkətlərinin və s. vahid elektron xidmətlər reyestrinin yaradılması;
4. Bütün dövlət qulluqçuları üçün vahid elektron poçt mərkəzinin yaradılması;
5. İnternetdən istifadə üçün əlavə motivasiya. Məsələn vergiləri daima online ödəyən ödəyicilərə müəyyən faiz güzəşt edilə bilər;
6. E-hökumət fondunun yaradılması.

### ELEKTRON HÖKUMƏT PORTALINA YENİ FUNKSİONALLIQLARIN ƏLAVƏ EDİLMƏSİ

1. "Xəbərlər" bölməsinin yaradılması. Burada Respublika əhəmiyyətli son xəbərlər yerləşdirmək olar;
2. "Yeniliklər haqqında elektron poçt gəlsin" xidməti aktiv olunsa yaxşı olardı;
3. Portalın 3 dildə təqdim edilməsi;
4. Portalda "Şəxsi Kabinet" yaradılsın. Buradan vətəndaş e-mail göndərə və ya qəbul edə, bank əməliyyatları, ödənişlərinə nəzarət və s. əməliyyatları həyata keçirə bilər;
5. Xidmətlərin qısa istifadə təlimatları;
6. İstifadəçi ehtiyaclarının və istifadəçi; məmnunluğunun sistemli monitorinq;
7. Vətəndaşlar üçün On-line xidmətlər: dövlətin vətəndaşlar üçün təklif etdiyi yardımlar, ünvan dəyişikliyi, dövlət qulluğunda iş imkanları, tələbələr üçün kreditlərə müraciət, məktəblər və kitabxanalar, istirahət və səyahət imkanları;
8. Yerli icra hakimiyyətlərinin e-hökumət portalına inteqrasiya etmək;
9. Portalda qeyri rezident bölməsinin yaradılması.

www.e-gov.az

## 01.10.2013 – 31.10.2013-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Telefon nömrəsi üzrə axtarış | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 57878 |
| 2 | Sığortaolunanın illər üzrə ödənişləri və pensiya kapitalı | Dövlət Sosial Müdafiə Fondu | 2708 |
| 3 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 2577 |
| 4 | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 2535 |
| 5 | Pensiyaçıya məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1162 |
| 6 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 1147 |
| 7 | Pensiya kapitalı barədə məlumat | Dövlət Sosial Müdafiə Fondu | 843 |
| 8 | Məcburi dövlət sosial sığortası üzrə hesabatların təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 808 |
| 9 | Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar | Daxili İşlər Nazirliyi | 595 |
| 10 | VÖEN-ə görə ödəyicinin axtarılması | Vergilər Nazirliyi | 454 |

## 01.11.2013-cü il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 37 | 89 | 126 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 31.10.2013 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 12156 | 657 | 3602 | 16415 |

## 2013-cü ilin Oktyabr ayı ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Milli Arxiv İdarəsi | 1 | 5 |
| 2 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 2 | 8 |
| 3 | Sənaye və Energetika Nazirliyi | - | - |
| 4 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | - | - |
| 5 | Xarici İşlər Nazirliyi | 2 | 4 |
| 6 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | - | - |
| 7 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2 | 2 |
| 8 | Dövlət Gömrük Komitəsi | 3 | 240 |
| 9 | Dövlət Sosial Müdafiə Fondu | 13 | 11851 |
| 10 | Dövlət Statistika Komitəsi | 4 | 53 |
| 11 | Vergilər Nazirliyi | 9 | 1239 |
| 12 | Ədliyyə Nazirliyi | 7 | 788 |
| 13 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | - | - |
| 14 | Fövqəladə Hallar Nazirliyi | 3 | 101 |
| 15 | Müdafiə Sənayesi Nazirliyi | - | - |
| 16 | Səhiyyə Nazirliyi | 21 | 549 |
| 17 | Diasporla İş Üzrə Dövlət Komitəsi | - | - |
| 18 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 1 | 1 |
| 19 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 1 | 1 |
| 20 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 6 | 181 |
| 21 | Dövlət Dəniz Administrasiyasi | - | - |
| 22 | Təhsil Nazirliyi | 3 | 606 |
| 23 | Gənclər və İdman Nazirliyi | 3 | 6 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 6 | 560 |
| 25 | İqtisadi İnkişaf Nazirliyi | 1 | 1 |
| 26 | Kənd Təsərrüfatı Nazirliyi | - | - |
| 27 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 9 | 646 |
| 28 | Meliorasiya və su təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | - | - |
| 29 | Daxili İşlər Nazirliyi | 3 | 628 |
| 30 | Dövlət Sərhəd Xidməti | - | - |
| 31 | Müəllif Hüquqları Agentliyi | - | - |
| 32 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 1 | 191 |
| 33 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 164 |
| 34 | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | - | - |
| 35 | "AzərEnerji" | 1 | 14 |
| 36 | ASC"AzərSu" ASC | 1 | 338 |
| 37 | Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi | 4 | 119 |
| 38 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 37 | 60094 |
| | **CƏMİ** | **148** | **78390** |

www.e-gov.az

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmərlərin portala inteqrasiyası barədə

# MƏLUMAT

*01.11.2013*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 6 | 7 | 13 | 13 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 4 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 10 | 3 |
| 6 | İqtisadi İnkişaf Nazirliyi | 7 | 7 | 7 | 11 | 7 |
| 7 | Vergilər Nazirliyi | 57 | 4 | 9 | 44 | 40 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 9 | 6 | 6 | 7 | 6 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 6 | 9 | 8 | 12 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 12 | 12 | 16 | 18 | 12 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 17 | 17 | 23 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 5 |
| 13 | Təhsil Nazirliyi | 8 | 1 | 3 | 27 | 4 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 22 | 22 | 21 | 19 |
| 15 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 16 | 9 | 25 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 15 | 13 | 16 | 16 | 13 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 1 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 5 | 6 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 4 | 4 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 9 | 12 | 15 | 12 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 2 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 2 | 1 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| 41 | "Meliorasiya və su təsərrüfatı" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 42 | "Azərsu" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| 43 | "Azərenerji" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 44 | Mərkəzi Seçki Komissiyası | 0 | 0 | 6 | 9 | 0 |
| 45 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 0 | 0 | 1 | 4 | 0 |
| **CƏMİ:** | | **417** | **199** | **270** | **433** | **340** |

## 01.01.2013 – 01.11.2013 tarixlərdə "qeydiyyat tələb olunan" xidmətlərdən istifadə etmiş istifadəçilərin yaş hədləri üzrə xidmətlərdən ümumi istifadə aktivliyi




© 2013 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az